Məmmədova Aygül Əliyar qızı

İNSANIN İRADƏ HÜRRIYYƏTİ MƏSƏLƏSİNİN TƏHLİLİ: QURAN MÜSTƏVİSİNDƏ

İRADƏ TERMİNİNİN ETİMOLOGİYASI

İstəmək mənasındakı “rəvd” kökündən yaranan iradə Allahın əmrləri, hökmləri və feillərində hür olduğunu bildirən sifət mənasını ifadə edir. Məşiət, rıza, məhəbbət, ixtiyar, rəhmət sözləri də iradə ilə yaxın məna daşıyır. İradə sözünün “istəmək”, “arzu etmək” kimi mənalarıyla yanaşı, “qurmaq”, “əmr etmək”, “idarə etmək” kimi mənaları da vardır. [1, s.379] Terminoloji mənasıyla yanaşı gündəlik həyatımızda da iradə ifadəsi müxtəlif mənaları ifadə edir. Belə ki, bu termin “bir şeyi edib etməməyə qərara vermə gücü”, “istək”, “dilək”, “hökmdar əmri”, “əmr etmək”, “Allahın istəyi və əmri” (irade-i uluhiyyə), insanın iradəsi (irade-i cüziyyə), millətin qərarı mənasında milli iradə şəklində izafət olaraq da istifadə edilir.[2,s.27] “Radə”( رادا) feilinin faili olan “raid” tələb edən, otlaq tapmaq istəyən kimi mənaları əhatə edir. Eyni kökdən yaranan راود feili də, bir şeyi ürəkdən istəmək mənasında istifadə edilir. Tələb etmək və iradə etmək arasında fərq olduğunu söyləyən Zəbidi tələb etməyin açıq bir şəkildə iradənin isə həm açıq, həmdə gizli şəkildə baş verdiyini söyləmişdir[ 3, s.95]. İbn Mənzur bu mənada iradənin cansız varlıqlar və heyvanlar üçün də istifadə edilə biləcəyini söyləmişdir. O bu mənada “Onlar orada yıxılmaqda olan/ yıxılmağa iradə edən bir divar gördülər.”[4. Kəhf 18/77] ayəsi ilə öz fikrini əsaslandırır. Rağib əl-İsfahani iradənin şəhvət, ehtiyac və əməldən ibarət bir qüvvə olduğunu qeyd edir. Ona görə iradə nəfsin bir şeyə meyl etməsidir. Onu etmək və ya etməmək imkanı insana verilib. İsfahani bu ifadənin müxtəlif mənalarda əmr etmək, hökm vermək, tələb etmək mənalarının da mövcud olduğunu söyləmişdir.[5, s.54] Qadi Beyzavi “İradə bir feilə nəfsin tabe olmasıdır” düşüncəsini qəbul etmiş, tabe olmağın ilk qaynağı olan qüvvəyə də iradə deyildiyini vurğulamışdır. [5, s.54]

Firuzabadi və Ət-Təhanəviyə görə isə “İstəmək bir şeyə meyl etmək” mənasındadır.[5, s.54] Əbu Muin Ən Nəsəfi iradə ifadəsinin əslinin ərəbcə sülasi feil olan “r-v-r” kökündən törədiyini və tələb etmək, meyl etmək kimi mənalar daşıdığını söyləyir. [5, s. 54].

İradəli şəkildə həyata keçirilən feildə 4 xüsusiyyət vardır. Bu xüsusiyyətlər aşağıdakılardır:

1) Məqsədin qərarlaşdırılması;
2) zehində müzakirəsi;
3) qərar vermə;
4) tətbiq etmək.

Burada ən önəmli məqam qərar anıdır. Əgər qərar vermək anı olmasa, o zaman iradə də mövcud olmaz. İradəsi olmayan kəslərdə bu an yoxdur. Belə insanlar uzun müdət bir məsələni zehinlərində müzakirə edər, lakin qərar verməzlər. Dvelşarversin ifadə etdiyi kimi “İradənin qərar verdiyi anda insanda olan bütün qüvvələr bir nöqtədə cəmlənir”.[5, s.57] İradə termini hüquq, tarix elmləriylə yanaşı din, psixologya, fəlsəfə sahələrində də mütəmadi olaraq istifadə edilir. Bu termin əxlaq fəlsəfəsində hürriyət termini ilə yanaşı qeyd edilir. İradə hürriyətinə sahib olan biri öz ağlıyla düşünüb davranışlarını qayələrinə görə təyin edir. İslam dinində iradə problemi Allahın bir sifəti olaraq ələ alınır. İnsanın iradə və feillərinin Allahın iradəsi və feilləri ilə əlaqəsi də Allahın sifətləri kimi izah edilir. Fəlsəfədə hürriyət problemi dində iradə məsələsi kimi izah edilib. Dində iradə həm Allaha, həm də insanlara aid bir qüvvədir və birbaşa feillərlə bağlıdır.İradənin dindəki əsas xüsusiyyəti seçməkdir.İnsan hərəkətlərinin qaynağı olaraq qəbul edilən xarici aləmin təsirində qalmasına baxmayaraq, ona qarşı şüurla qərar verməsidir iradə. İradə zehni fəaliyyətdir və bir hədəfi vardır. Bu da ancaq insana məxsusdur. İradəli bir hərəkəti iradəsiz halda baş verən hərəkətdən ayıran əsas xüsusondan ibarətdir ki, hədəfi əldə etmək üçün əqli fəaliyyətə labüddür. İradəni ilahi sifətlər arasında qəbul edən kəlam alimləri onu Allah tərəfindən yaradılan, feilləri müəyyən edən bir sifət olaraq qəbul ediblər.

Quranda iradə hürriyəti məsələsi. İradə hürriyəti həm psixoloji həm də fəlsəfi baxımdan mübahisələrə səbəb olan bir mövzu olmuşdur və hələ də mübahisə obyektine çevrilməkdə davam edir.Ancaq bu mövzu haqqında tam dəqiq qərar vermək mümkünsüzdür. Bu məqamda insanı bir neçə sual düşündürür. 1) İnsan davranış və hərəkətlərində təmamilə azaddırmı? 2) Yoxsa tək qüdrət sahibi Allahdırmı? 3) Belə olduğu halda insan davranış və hərəkətlərindən nə dərəcədə məsuliyyət daşıyır? Qeyd edilməlidir ki, bu və ya digər qəbildən suallar İslam Kəlam düşüncəsini ən çox düşündürən məsələlərdir. Ümumiyyətlə insan hürriyəti və məsuliyyəti, Allahın hər şeyi bilməsi və s. kimi teoloji və fəlsəfi məsələlərVII – VIII əsrlərin ən çox müzakirə edilən mövzularından biri olmuşdur. Qeyd edək ki, Hz. Peyğəmbər və sonra “Əsri Səadət” dövründə böyük səhabələr həyatda olduğu müddətcə bu mövzularla bağlı ixtilaflar olmamışdır. Kəlam elminin ən vacib və çətin mövzularından olan iradə hürriyətiylə bağlı Quranda insanın hərəkət və davranışlarında həm tam hürriyət sahibi olduğunu təsdiq edən, həm də bunun əksini söyləyən ayələrin mövcud olduğunu görürük. Bu mənada iradə probleminin ən vacib faktoru Allahın mütləq iradəsi qarşısında insan iradəsinin olub olmamasıdır. Burada bir necə sual böyük əhəmiyyət kəsb edir. Belə ki: Allah insan feillərinin yaradıcısıdırmı? İnsan hür iradəyə sahibdirmi? İslam alimləri hər zaman bu kimi suallar ətrafında düşünmüşlər. Qurani Kərimdə Allah bir şeyi istədiyi zaman ona ol deməsiylə hər şeyin olması bəyan edilir. “O göylərin və yerin bənzərsiz yaradıcısıdır. Birşeyi dilədiyi zaman ol deyər və oda olar.”[4. Bəqərə 2/117]. Bu kimi ayələrdən çıxan nəticəyə görə Allah mütləq iradəsiylə kainata hakimdir. Quran Allah iradəsinin sərhədsiz insan iradəsinin isə sərhədli olduğunu qeyd edir. De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsdən alarsan. İstədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən! ”. [4. Ali İmran 3/ 26] Bu ayələrdə insan iradəsinin Allahın mütləq iradəsinə bağlı olduğunu görürük. Quranda insan iradəsinin mütləq deyil, müqəyyəd olduğu bildirilir. “ (Onu da bilin ki) aləmlərin Rəbbi olan Allah istəməsə, siz (bunu) istəyə bilməzsiniz!”. [4.Təkvir 81/29] ayətini buna misal çəkə bilərik. İnsanın iradə hürriyətinə sahib olması məsələsi Quranda Allahın mütləq iradəsiylə birgə ələ alınıb. Çünki insanın varlığının səbəbi Allahdır. İnsanın dünyaya gəlişi, ölməsi Allahın iradəsinə bağlıdır. Bəşər övladının hür bir iradəyə sahib olması da Allahın iradəsinin nəticəsidir. İnsanın hərəkət və davranışlarını öz hür iradəsiylə həyata keçirdiyi vəonlara görə məsuliyyət daşıdığına dair Qurandabir çox ayələr var. Əlbəttə ki, Quranda Allahın mütləq iradə sahibi olduğuna dair ayələr də mövcuddur. Lakin bu insan iradəsi ilə ziddiyyət kimi qəbul edilməməlidir. Çünki həm insanın həm də Allahın iradəsiylə bağlı ayələr bir vəhdət içində təhlil edildiyi zaman orada heç bir ziddiyətin olmadığının şahidi olarıq. Belə ki, Allahın iradəsindən bəhs edən ayələrdə onun iradəsinin mütləq, əzəli olduğu, var olan hər şeyin onun iradəsiyləəhatə olunduğu bildirilir. İnsana aid olan iradədən bəhs edən ayələr isə insanın cüzi və məhdud iradəyə malik olduğu qeyd edilir. Bu mənada

insanın öz iradəsiylə seçdiyi heç bir şey Allahın iradəsinə zidd ola bilməz. Digər tərəfdən belə düşünmək olar ki, əgər Allah insana iradə hürriyəti verməsəydi, o zaman nə insan iradəsindən nə də bəşəri məsuliyyətdən bəhs etmək mümkün olardı. Quranda insanın hür iradəyə sahib olduğunu göstərən bir çox ayət mövcuddur. "Hər kəsə qazandığı təmamilə veriləcək." [4. Bəqərə 2/281 ] ayətində insanın dünyada səbəb olduğu xeyir və şərrin öz qazancı olaraq axirətdə qarşısına çıxacağı bildirilir. "Şübhəsiz biz ona doğru yolu göstərdik. İstər şükr edən, istər nankor olsun." [4. İnsan 76/3] "Və de ki, haqq rəbbinizdəndir. Kim istəyir inansın, kim istəyir inanmasın." [4. Kəhf 18/29] Bu ayələrdə insanın iman və inkar etməkdə hür iradəyə sahib olduğu bildirilir.İnsan davranışlarındakı feilləri hür iradəsiylə həyata keçirir. İnsanın seçiminə görə Allah o feili yaradır və həmin feilə görə insana məsuliyyət yükləyir. Allah insanları xeyir əməllər görməyə sövq edir, pislik etməkdən çəkindirir. Allah pislik edənlərin cəzalarını çəkəcəklərini ayələrdə belə vurğulayır: "Başınıza gələn hər bir müsibət etdikləriniz əməllərdir." [4. Şura 42/30] Belə ki, Quranda buyurulur ki, "Bir toplum özlərindəki xüsusiyyətləri dəyişdirməyənə qədər Allah onlarda olanı dəyişdir "Bu əzab sizin öz əllərinizlə törətdiyiniz əməllərə görədir, yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir!məz." [4. Ali imran 3/182]

Nəticə etibarilə deyə bilərik ki, Allah insanın iradə sahibi olduğunu müxtəlif surə və ayələrdə bizə bəyan edir. Bununla bərabər insanın bütün iradəli feillərinin,hal və hərəkətlərinin Allahın mütləq iradəsi çərçivəsində baş verdiyi xüsusu da dəfələrlə vurğulanır.İradə hürriyətindən bəhs edən ayələri ümumi olaraq dəyərləndirdikdə, məlum olur ki, Allahın mütləq və sonsuz iradəsi qarşısında insan cüzi və məhdud iradəyə malikdir. Bu cüzi və məhdud iradə bəşər övladının hərəkət və davranışlarında məsuliyyət daşıması üçün kafi səbəbdir.

Ədəbiyyat siyahısı

1. TDV İslam ensklopedyası, İradə maddəsi, cild 22, İstanbul, 2000.
2. Prof.Dr.M.Saim Yeprem, İrade hürriyeti ve İmam Matüridi, İstanbul 1997
3. Murat Memiş, Allaha izafesi bakımından Kuranda irade ve meşiet kavramları məqaləsi, İstanbul, 2010
4. Qurani – Kərim ( Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsi), Bakı, 2014
5. Hayati Aydın, Kuranda irade-azm ve tevekkül, Dinbilimleri akademik araştırma jurnalı,VIII, İstanbul, 2008

Açar sözlər: Quran, insan, iradə, hürriyət,
Key words: Koran, human, willpower, freedom
Ключевые слова:Коран, человек, воля, свобода

Xülasə

İnsan hürriyəti problemi İslam dini, xüsusilə Quran müstəvisində ələ alınacaqsa, bu məsələnin Allahın mütləq iradəsi və elminin nəzərə alınaraq tədqiq edilməsi daha müvafiq olar. Çünki İslama görə insanın varlığının mənşəyi Tanrıya gedib çıxır. Buna görə də İslam düşüncəsində insanın hür iradəsiylə seçimlərini yerinə yetirmə qabiliyyəti Allahın güc və iradəsi çərçivəsində izah edilərək əsaslandırılır.

Quranda Allahın mütləq iradə və elm sahibi olduğunu bildirən ayələrlə bərabər insanın iradə hürriyətinə sahib olduğunu bildirən ayələr də mövcuddur. İradə hürriyətindən bəhs edən ayələri ümumi olaraq dəyərləndirdikdə, məlum olur ki, Allahın mütləq və sonsuz iradəsi qarşısında insan cüzi və məhdud iradəyə malikdir.

Resume

If the problem of free will of human being is studied in the Islamic, especially in the context of the Koran, the issue mast be taken into the consideration the obsolute will and knowledge of God. Because, according to Islam, God is origin of human beings in terms of ontology. Therefore, the ability to carry out his/her choice by means of free will is justified in the light of God's absolute power and will in Islamic thought. There are also verses in the Qur'an that indicate that God has absolute will and knowledge alongside free will of human being.When we evaluatethe verses that refer to the conception of free will, it is clear that in the face of God's absolute and eternal will, human being has a small and limited will.

Резюме

Если проблема свободы человека будет рассматриваться в плоскости Ислама, и в особенности в плоскости Корана тогда будет более уместным исследовать данный вопрос сквозь призму абсолютной воли и знания Аллаха. Потому, что по исламу Бог является источником сущности человека. Поэтому способности выполнения своего выбора объясняется в исламской мысли как силой и свободой Бога. В Коране наряду с аятами о том, что Аллах обладает абсолютной волей и знаниями, имеются аяты про свободу воли человека. В общем оценив свободу воли в стихах становится ясно, что перед лицом обязательной и бесконечной волей Аллаха человеческая воля является малейшей и ограниченной

Rəyçi: i.e.d dosent Anar Qafarov